# Qriboyedovun ölümünə kim bais olub?

ədib-səfirin ölümündə əsas günahkarın adı niyə çəkilmir?



Evlənəndən sonra Qriboyedovun qəlbi məhəbbətdən coşub-daşır, sevinci yerə-göyə sığmırdı. İrana Rusiyanın səfiri göndərilən Qriboyedov bir neçə gündən sonra Təbrizə yola düşdü. Arvadı da onu Təbrizə qədər yola salacaqdı. Yoldan belə yazırdı: *"Evlənmişəm, çox xoşbəxtəm. İndi 110 at və qatırdan ibarət nəhəng bir karvanla yol gedirik. Bəzən dağların döşündə çadırlarda gecələyirik. Qışın soyuğudur. Mənim Ninam (Nina gürcü knyazı Çavçavadzenin qızıydı). Məndən ayrılmaq istəmədi. Təbrizəcən mənimlə olacaq, ordan Tiflisə qayıdacaq. Nina heç nədən narazılıq eləmir. Yolun yorğunluğuna baxmayaraq, ovqatı lap yaxşıdır. Yolboyunca rastımıza adamlar çıxır, çaparaq toz qaldırıb gəlir, sonra atdan düşüb, "xoş gəldin" deyir, dil-ağız eləyirlər... Doğrudanmı günüm elə bu cür keçəcək? Nə yaxşı ki, Nina mənimlədir. Hər yorucu gündən sonra axşam düşən kimi, öz "hərəmxanama" can atıram. Orda məni istəklim, yeganəm gözləyir ki, o mənə həm bacıdı, həm arvad, həm övlad... Hamısı da bircə şəxsdən ibarətdir: – Nina!"*

İrəvan əhli təntənə ilə səyahətçilərin pişvazına çıxdı. Bir dəstə atlı şəhər divarlarından aralanıb karvana sarı yönəldi. Qriboyedov da ata minib, başının dəstəsi ilə onların qabağına çıxdı. İrəvan plats-adyutantı özünün rus dili ehtiyatını göstərmək xətrinə Qriboyedova üz tutdu:

- İRƏVAN XANLIĞI sizə bu torpağa xoş gəlmisiz deyir!

Səfirin İrəvanda qaldığı ikicə gün ərzində adlı-sanlı YERLİ XANLARIN hər biri Qriboyedovu və qonaqları təntənəli nahara, şam yeməyinə dəvət etməyi özünə borc bildi...

***

1828-ci il sentyabrın 23-də Qriboyedov elə yoldan general Paskeviçə xidməti bir məktub göndərdi. Paskeviçə yazdı ki, Türkmənçay müqaviləsinin bir sıra bəndləri hər iki tərəfdən, özü də məmurlar tərəfindən təhrif olunur. Qriboyedov Paskeviçdən o xahişdə bulundu ki, Qafqaz canişini öz imzası ilə burdakı vilayət və sərhəd rəislərinə xüsusi təlimat yollasın – o barədə ki, onlar Rusiyanın mənafeyinə xidmət göstərən prinsiplərə riayət etsinlər. Rusiyanın təzə səfiri Türkmənçay müqaviləsinə görə İranın məğlub tərəf kimi Rusiyaya ödəyəcəyi məbləğdən də söz açırdı...

Yol boyunca təzə səfirin – yəni Qriboyedovun tez-tez xəstələnməyi karvanı ləngidirdi. Necə müddətdi ki, Tiflisdən çıxan səfir və onun dövrəsindəki adamlar Culfaya 1828-ci il oktyabrın 1-də çatdılar. Bu əsnada Qriboyedov Paskeviçə daha geniş bir məktub yazdı. Həmin məktubda Qriboyedov öz narahatlığını bildirirdi ki, **"Türkmənçay müqaviləsindən sonra ermənilərin Naxçıvan vilayətinə köçürülməsi düşünülməmiş bir siyasətdir. Çünki rus hökumətinin belə bir köçə razılıq verməsi Naxçıvanda yerli və köklü əhalinin haqlı etirazına səbəb olur".** Qriboyedov məktubunda yazırdı ki, **– "bu köçəcən Naxçıvanda əvvəllər çox az miqdarda – barmaqla sayılası**

**qədər erməni yaşayıb. Türkmənçaydan sonra İrandan köçürülən ermənilərin sayı süni surətdə Naxçıvanda yaşayan köklü müsəlman əhalisinin sayına çatdırılır. Düzdür, burda – yəni Naxçıvanda gəlmələrin – yəni ermənilərin vəziyyəti başqa yerlərə nisbətən yaxşıdır. Amma tatarların *(azəri türklərinin – red.)* şüurundakı narazılıq və etiraz ən yüksək həddinə çatmaqdadır".**

Qriboyedov eyni zamanda bu konflikta səbəb olan problemin özgə bir diplomatik həllini təklif edir: – **"köçürülən erməni ailələrinin başqa yerlərə yollasınlar. Onsuz da onların yaşamağa yeri-yurdu yoxdur. Belə çıxır ki, biz yerli bəy və xanların hakimiyyətini əlindən alırıq, əvəzində isə yerli əhaliyə yad və dolaşıq qanunlar sırımaq fikrindəyik... Yenə təkrar etməyi özümə borc bilirəm. Burda elə vəziyyət yaranmasın ki, yerli xalq arasında böyük hörmət və etibar qazanmış şəxslərin və din xadimlərinin başının üstündən tamam yad bir millətin qanunlarını zorakı şəkildə qüvvəyə mindirək".**

Əlbəttə, belə bir məsləhətin İranda, Qafqazda, ümumiyyətlə, müsəlmanlar arasında uzun müddət işləmiş, müsəlman aləminin qayda-qanunlarına yaxından bələd olan bir şəxs, ağıllı bir diplomat təklif edə bilərdi. Qriboyedov razılığı silah gücünə deyil, qarşılıqlı hörmət, qanuni ədalət yoluyla bərqərar etmək istəyirdi. Hər şeyi silah və zor gücünə həll etmək tərəfdarı olan general Yermolovdan fərqli olaraq, Qriboyedov Qafqazda yaşayan yerli əhaliyə, eləcə müsəlman qayda-qanunlarına rəğbət bəsləyirdi.

Bununla belə, Qriboyedov Türkmənçay müqaviləsinin 6-cı bəndinə uyğun olaraq, İran hökumətinin məğlubiyyətdən sonra ödəyəcəyi təzminat, bu təzminatın ödənmə ardıcıllığı barədə öz fikrini bildirir. Qriboyedov belə gümandadır ki, müharibədən sonra tamam kasıblayan İran hökumətinin həmin təzminatı vaxtlı-vaxtında ödəmək imkanı yoxdur: *"Şahın oğlu Abbas Mirzənin təkidi ilə sarayındakı adamlar, hətta Abbas Mirzənin zövcələri belə öz libaslarından brilyant düymələri qoparıb bizə verirdilər. Mən heç yerdə belə vəziyyətlə bu vaxta qədər rastlaşmamışdım".* Onu deyək ki, Abbas Mirzə Qriboyedovdan rica elədi ki, Rus hökuməti təzminatın şərtlərini bir qədər yüngülləşdirsin. Çünki İran indiki vəziyyətində həmin təzminatı vaxtlı-vaxtında yerinə yetirməyə acizdir: *"Mən rus dövlətinin bir elçisi kimi öz etirazımı bildirdim. Dedim ki, məni İran dövlətinin nə vəziyyətdə olmağı maraqlandırmır. Və yaxud şahzadənin öz atası ilə münasibətlərinin də bizə heç bir dəxli yoxdur. Madam ki, şah bu müqaviləni imzalayıb, mən də öz ölkəmin elçisi kimi bu şərtlərin İran dövləti tərəfindən yerinə yetirilməsində təkid edirəm".*

Bununla belə, Qriboyedov təklif eləyir ki, həmin təzminatı, daha doğrusu, iyirmi milyon gümüş pul miqdarında olan borcu



başqa malla – əmtəə ilə də əvəz etmək olar – pambıqla, ipəklə-qumaşla, ya digər qiymətli parçalarla. Təzminat yerinə yaxşı atlar, taxıl və qeyri məhsullar da almaq olar...

1828-ci il dekabrın 9-da Qriboyedov Təbrizə çatdı. Bir neçə gündən sonra öz dostları, həm də çox sevdiyi Nina Çavçavadze ilə xudahafizləşib arvadına söz verdi ki, çox tezliklə Tiflisə qayıdacaq. Rusiyanın təzə səfiri Təbrizdə çox ləngiməyib Tehrana yola düşdü...

**Səfirin ölümü**

Tehran sarayında isə Fətəli şahın münəccimi, aylıq təqvim tutanda Əqrəb bürcünün yerini dəyişəcəyini sezdi. Bu isə vaqe olacaq hadisələrdən xəbər verirdi. Münəccim şahı bundan xəbərdar elədi. Artıq qocalmaqda olan şah dodağının altında nəsə mızıldanıb, eşikağasını çağırtdırdı və sarayın mühafizəsini daha da gücləndirməyi tapşırdı. Bu dəmdə Qriboyedov öz qafiləsiynən Tehran yolunda axırıncı aşırımdan keçməkdəydi. Karvan çox yavaş gedirdi, çünki möhkəm qar yağmışdı, atlar faytonu

güclə dartıb aparırdı. Qriboyedovla bərabər bu heyət 30 nəfərdən ibarət idi. Qafiləni 16 kuban kazakından ibarət atlı mühafizə dəstəsi müşayiət eləyirdi. Aşırımdan keçəndən sonra karvan Zəncan şəhərinə varid oldu. Və səhərisi Zəncanın o vaxtkı hakimi şahzadə Əbdül Mirzə Qriboyedova gözəl bir at bağışladı. Bundan əlavə, Əbdül Mirzə yol gəlib yorulan və şahzadə Abbas Mirzənin Təbrizdə onlara bağışladığı 15 atı dəyişməyi də tapşırdı. Belə qiymətli hədiyyələrin əvəzində rus səfiri Qriboyedov da öz hökuməti tərəfindən nəsə hədiyyə verməliydi. Təəssüf ki, bunun müqabilində Qriboyedovun istər özünün, istərsə dövlət tərəfindən də elə bir imkanı yox idi ki, bu qonaqpərvərliyin əvəzini çıxsın. Gücü təkcə ona çatırdı ki, cibindəki çervonlardan biri-ikisini gecələdiyi evin sahibinə versin. Qriboyedov ona ümid bağlayırdı ki, çar da öz növbəsində Həştərxandan gəmi ilə Tehrana, şah üçün çox qiymətli hədiyyələr göndərib və bəlkə də Qriboyedov Tehrana çatana qədər o hədiyyələr şahın sarayına yetişəcəkdi...

Qriboyedovun Tehrana çatmağı Günəşin Əqrəb bürcünə keçən gününə düşdü. Saray münəccimi məhz həmin tarixi nəhs gün hesab etmişdi. Ertəsi Qriboyedov o vaxtkı xarici işlər naziri Mirzə Əbdül Həsən xanın qəbulunda oldu və bir sıra tanınmış məmurlarla görüşdü.

Üstündən bir gün keçəndən sonra Fətəli şah onu şəxsən özü qəbul elədi. Rus səfiri İran şahı ilə bir sıra mühüm məsələlər barəsində söhbət apardı. Vaxtilə rus təbəəsi olmuş əsirlərin qaytarılması, təzminatın ödənişi, iki ölkə arasında ticarət əlaqələrinə mane olan səbəblərin aradan qaldırılması və sairə. Ziyafətdən sonra İran şahı rus elçisinə qızıl yüyənli gözəl bir at, hələ nə qədər də qiymətli hədiyyələr bağışladı. Qriboyedov Şiri-Xürşid ordeni ilə də təltif olundu. Səfirlə bərabər saraya qədəm basan digər şəxslər, hətta səfirliyin keşiyində dayanan rus kazaklarına belə bəxşişlər, medallar paylandı...

Hər şey yaxşılığa doğru gedirdi... Amma üstündən bir neçə gün keçəndən sonra, gecənin bir vaxtı səfirliyə oğrun-oğrun bir adam təpildi. Məlum oldu ki, Mirzə Yaqub xan adlı bu şəxs əslində 25 ildən artıqdır ki, İslam dinini qəbul etmiş erməni Markarkandır, özü də şah hərəmxanasının xacəsidir. Arazın o tayına – Naxçıvana, ya da Qarabağa köçürülən ermənilərə qoşulub getmək istəyir. Xahişi də budur ki, rus səfiri Qriboyedov bu işə binagüzarlıq eləsin. Lakin, Qriboyedov Türkmənçay müqaviləçinin şərtlərinə uyğun gəlməyən bu məsələni boynuna götürmək istəmədi. Çünki, Türkmənçay müqaviləsinin 14-cü bəndində deyilirdi ki, – *"Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı müharibəyə qədər, yaxud əvvəllər digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilməsini tələb etməyəcəkdir".* O ola ki, həmin erməni 25 ildən artığıydı ki, İslamı qəbul edib və İran təbəəsi sayılır. Mirzə Yaqub xan – yəni Markaryan and-aman eləsə də, Qriboyedov bu məsələyə qol qoymadı, sarayın xacəsini necə gəlmişdisə eləcə geri qaytardı. Sabahısı gecə Mirzə Yaqub xan, yəni Markaryan yenə rus səfirliyinə özünü saldı və burdan çıxmayacağını bildirdi. Vəziyyət həm də ona görə mürəkkəb idi ki, iki gürcü qızı da səfirliyə pənah gətirmişdi və qohumlarının xahişi ilə öz doğma yurdlarına qayıdacaqdılar. Səfir Qriboyedov çox çətin vəziyyətə düşmüşdü. Bir yandan diplomat, bir yandan da xaçpərəst təəssübkeşi kimi...

Təbii ki, şah sarayında Mirzə Yaqub xanın itməkliyi nəzərdən qaça bilməzdi. Soraq yayıldı ki, hərəmxananın xacəsi Mirzə Yaqub Xan Rus səfirliyində qaçıb gizlənib, ordan çıxmaq istəmir. Şah elə həmin gün rus səfirliyinə elçi göndərdi və Qriboyedova çatdırdı ki, qoy rus səfiri, kökü erməni olsa da 25 ildən artıqdır ki, İslamı qəbul edən İran təbəəsini geri qaytarsın. Qriboyedov erməni – xacənin felinə uyub şahın elçisinə "yox" dedi. Üstündən bir az keçmiş şah tərəfindən Qriboyedovun üstünə daha bir elçi göndərildi. Elçi səfirə ərz elədi ki, hərəmxana xacəsi şahın arvadlarından biri sayılır və şah buyurdu ki, qoy rus elçisi şahın arvadını onun hərəmxanasına qaytarsın. Səfir odla su arasında qalmışdı. Və Qriboyedov elçi ilə söhbət apararkən, o xacə Mirzə Yaqub Xan-Markaryan Qriboyedovun arxasından sivişib irəli çıxır və şahın elçilərini söyməyə başlayır, eyni zamanda İslam dinini təhqir edir, müsəlmanların qarasına söyüşlər yağdırır. Elçilər heç bir söz demədən geri qayıdır və Mirzə Yaqub xanın, daha doğrusu, xacə erməninin qudurub nə biabırçılıq törətdiyini şaha çatdırırlar.

Səhərisi Fətəli şah rus səfiri Qriboyedovu sarayına çağırtdırır və ona söyləyir ki, – "belə getsə sən mənim bütün arvadlarımı əlimdən alacaqsan. Elə güman eləmə ki, mən susacağam. Biləsən ki, oğlum Naib-sultan Peterburqa yola düşüb, şəxsən səndən rus imperatoruna şikayət olunacaq".

Lakin şahın bu xəbərdarlığını Qriboyedov saya salmadı və şahın dediklərini qulaqardına vurdu.

Rus səfirinə rəğbət göstərən hansısa yerli

məmur Qriboyedovu xəbərdar etdi ki, bu məsələnin axırı yaxşı qurtaran deyil. Qriboyedov isə dirəndi, xatircəmliklə belə söylədi: "Böyük bir dövlətin elçisinə heç kəs əl qaldırmağa cürət eləməz".

Lakin 30 yanvarın səhəri Qriboyedovun öz fikrində yanıldığını sübuta yetirdi.

Təbii ki, ermənінin bu nankorluğu dindarların, o cümlədən müctəhidin qulağına çatmışdı. Artıq səhərisi müctəhid minbərə çıxıb, öz xütbəsində satqınlıq və nankorluq barədə danışır və deyir ki, bəziləri İslamı zahiri cəhətdən qəbul etsələr də, ürəklərində xain və satqındırlar, hətta dinimizi təhqir etmək, alçaltmaq dərəcəsində alçaq və nankordurlar.

Müctəhidin xütbəsini eşidən məsciddəki camaat ordan çıxıb birbaş rus səfirliyinin binasına hücum çəkdi. Eşidəq-bilən, yaxın küçələrdən səfirliyin üstünə cuman camaata qoşulur, ucadan lənət yağdırırdılar. Çoxusunun əlində daş-kəsək, xəncər-bıçaq vardı. Təbii ki, rus səfirliyinin keşiyini çəkən İran sərbazları kütlənin qabağında dura bilməzdi. Camaat səfirliyin darvazasını sındırıb: "Öldür onu!" şüarı ilə həyətə doluşdu. Rus kazakları atəş açsalar da, onların bu hərəkəti camaatı daha da qeyzləndirdi. Binanın içərisinə soxulan adamlar qabaqlarına gələni sındırıb dağıdır, hər şeyi kor qoyurdu. Bu qəzəbin qarşısında dayanmaq çətiniydi. Səfir libasında və əlində tüfəng irəli çıxan Qriboyedov da bu selin qabağında duruş gətirə bilməzdi. Səfirliyin bütün işçiləri – onun həkimi, tərcüməçilər, kamerdineri, kazaklar, o iki gürcü qızı və o cümlədən, erməni Mirzə Yaqub-Markaryan da öldürüldülər. Nifrətinin son həddinə yetişən kütlə Qriboyedovun meyitini həyətə çıxarıb, istehza ilə "səfirə yol verin, yol verin!" deyə küçə boyu sürüməyə başladı. Sağ qalan təkcə səfirliyin katibi İvan Maltsov oldu ki, o iranlı sərbazlara 100 çervon qızıl verib səfirliyin hansı küncündəsə gizlənmişdi. Təbii ki, baş verən hadisələri onun özü də görə bilməzdi.

Kütlə demək olar ki, səfirliyin daşını daş üstə qoymadı. Kağız-kuğuz, məktublar, stullar, divan və şkaflar xıncım-xıncım olundu, ayaqlar altında tapdalandı.

İvan Maltsovu isə gecə keçəndən sonra İran sərbazları başqa libas geyindirib şah sarayında gizlətdilər. Onu da deyək ki, Təbrizdəki rus konsulu Amburger bu faciə barədə eşidən kimi qorxdu, yuxarıdan heç bir sərəncam gözləmədən Naxçıvana qaçdı. İrəvan vilayətinin rəisi general-mayor Aleksandr Çavçavadze kürəkəni Qriboyedovun qara xəbərini eşidən kimi qraf Paskeviçdən izn istədi ki, Təbrizə getsin, ancaq Paskeviç ona icazə vermədi. Qızının taleyindən narahat olan ata İrana öz yaxın qohumu Roman Çavçavadzeni göndərdi. Maltsov isə Təbrizə Amburgerin y erinə konsul təyin olundu. Bu xəbəri eşidən Maltsov qraf Paskeviçə məktubunda belə yazdı: *"Zati-aliləri, mən iranlıların hiyləsinə hiylə ilə cavab verdim. Və bunun sayəsində salamat qaldım. İndi yenə mən ikibaşlı rus qartalının himayəsindəyəm və sizdən rica edərdim ki, dediyim həqiqəti nəzərə alasınız. Biləsiniz ki, mənim sağ qalmağımı iranlılar heç vaxt bağışlayan deyil. Bundan sonra neyləsəm belə, mən onların gözünün düşməniyəm. Fürsət düşən kimi məni öldürəcəklər. Ricam budur ki, məni əvvəlki işimə qaytarmayasız. Əgər mümkünsə, məni hansısa Avropa ölkəsində ən adi katib yerinə layiq görəsiniz".*

Qriboyedovun ölüm xəbəri Rusiyaya mart ayında çatdı. Mayın 1-də isə Qriboyedovun cənazəsi 50 nəfər atlı sərbazın müşayiəti ilə Culfada Rusiya tərəfinə verildi. Sonra isə tabut Tiflisə gətirildi. Deyilənə görə, Qriboyedovun meyiti tanınmaz halda imiş. Amma onun dul qalan arvadı söylədi ki: – "ərimin tanınmazlığı barədə fikirlər yanlışdır. Çünki mən onu, vaxtilə dueldə yaralanmış çeçələ barmağından tanıdım". Paskeviçin sərəncamı ilə, Qriboyedovun özünün vəsiyyətinə uyğun olaraq, səfir Qriboyedov Tiflisdə torpağa tapşırıldı. Mərhumun ailəsinə, daha doğrusu, anasına rus hökuməti 60 min manat yardım göstərdi, dul arvadı Ninaya isə ayda 5 min manat təqaüd kəsildi.

Rusiya ilə münasibətlər korlanmasın deyə, məsciddə səfirliyin fitvasını vermiş ayətulla Mirzə Məsih Mücdəhid etirazlara rəğmən İrandan qovuldu və o Kərbəla şəhərində özünə məskən tapdı. Danışıqlar başa çatandan sonra şahın oğlu şahzadə Xosrov Mirzə başının dəstəsi ilə Peterburqa yola düşdü. O Fətəlişahdan imperatora üzrxahlıq məktubu, şəxsən I Nikolaya isə "Şah" adında dünyada indi də nadir ölçüdə sayılan almaz aparırdı. İran şahı həm də rus çarına çox qiymətli hədiyyələrlə bərabər, ələ düşməyən qədim kitablar göndərdi ki, indi həmin kitablar və əlyazmaları Ermitajda və Şedrin adına kitabxanada saxlanır. Onu da deyək ki, bütün bu hədiyyələrdən və Abbas Mirzə tərəfindən yazılan üzrxahlıq məktubundan son dərəcə mütəəssir olan çar Nikolay İranın ödəyəcəyi təzminatın möhlətini dəxi beş il artırmış oldu…

◆